## Mövzu 14 DÖVLƏT BORCLARI
## plan

**1. Dövlət borclarının iqtisadi mahiyyəti ,dövlət borclarının məqsəd və vəzifələri**
**2.Dövlət borclarının idarə edilməsi**
**3.Dövlət borcunun idarə edilməsi mərhələləri.**

Xərclərin gəlirlərdən çox olması borcların əmələ gəlməsinə səbəb olur. Borcun alınması və qaytarılması borclanma adlanır. Dövlət borcları dedikdə ölkənin deyil, yalnız hökumətin borcları nəzərdə tutulur.

Dövlət borcu – müvafiq xərclərin maliyyələşdirilməsi üçün dövlət zəmanəti ilə alınan və dövlətin öhdəliyi əsasında müəyyən edilmiş müddətlərdə qaytarılması nəzərdə tutulan maliyyə vəsaitidir.

«Dövlət borcu haqqında» Azərbaycan Respublikası qanununa əsasən dövlət borcu daxili və xarici borcdan ibarət olmaqla, respublikanın təxirəsalınmaz sosial-iqtisadi xərclərinin maliyyələşdirilməsi və büdcə kəsirinin örtülməsi üçün milli və ya xarici valyuta ilə ifadə edilmiş borc öhdəlikləridir.

Dövlətin borclanmasının əsas səbəbləri dövlət xərclərininin tam maliyyələşdirilməsi məcburiyyətindədir. Qeyd olunduğu kimi xərclər gəlirlərlə örtülmədikdə borclanma zərurəti yaranır.

Dövləti borc almağa sövq edən əsas səbəblər aşağıdakılardır:

- fövqəladə xərclərin təmin edilməsi üçün borclanma;
- təbii fəlakətlərin və müharibələrin maliyyələşdirilməsi;
- investisiyaların maliyyələşdirilməsi üçün borclanma;
- büdcənin gəlir və xərcləri arasında tarazlığın saxlanılması;
- borc ödəmək məqsədilə yenidən borclanma.

Müddətinə görə dövlət borcları:

- qısa müddətli (5 ilə qədər)dövlət borcları – əsasən xəzinənin ehtiyacını ödəmək məqsədi ilə alınır. Bunun üçün xəzinə vekselləri (qısamüddətli borc sənədləri, istiqrazlar ) buraxılır. Qısamüddətli borclar müxtəlif səbəblərə görə alınır. Bu səbəblərə aşağıdakılar aid edilə bilər:

- zaman etibarı ilə büdcənin ahəngdarlığı (balanslaşdırılmış)

- uzunmüddətli (5 ildən yuxarı)dövlət borcları – investisiyanın maliyyələşdirilməsi üçün kapital və kredit bazarlarından götürülən borclardır. Dövlət uzunmüddətli borclar almaq üçün uzunmüddətli borc vəsaitləri (dövlət istiqrazları) buraxır.

Uzunmüddətli dövlət borcları qaytarılma müddəti dəqiq göstərilən davamlı borclara ayrılır.

Dövlət borcları mənbələrinə görə daxili və xarici dövlət borclarına ayrılır.

Borcun mənbəyini müəyyənləşdirməyin əsas əlaməti təbii ki, onun haradan alınmasıdır. Dövlətin borc kağızlarını harada satması borcların təsnifatı üçün

əsasdır. Belə ki, daxili borc kağızları daxili maliyyə mənbələri hesabına alındığından bu borclar daxili borclar hesab olunur.

Daxili bazardan borc almaq imkanı olmadıqda dövlət xarici mənbələrdən borc almaq məcburiyyətində qalır. Xarici dövlət borcları aşağıdakı mənbələrdən əldə edilir: xarici dövlətlərdən, xarici dövlətlərin banklarından, xarici dövlətlərin müəssisə və vətəndaşlarından, beynəlxalq maliyyə-kredit təşkilatlarından.

Bütün hallarda xarici borcların artması ölkə iqtisadiyyatı üçün risklidir. Cari problemlərin həllinə yönəldilən xarici borclar milli iqtisadiyyatın qeyri-qənaətbəxş vəziyyətinin göstəricisi sayıla bilər.

**Borc bazarının strukturu**



**Xarici borcların və kreditlərin formaları**




**Dövlət borclarının idarə edilməsi**

Dövlət borclarının idarə edilməsi – dövlət tərəfindən uyğun borc mənbələrinin tapılması, cəlb edilmiş vəsaitlərin səmərəli şəkildə istifadəsi, onların qaytarılması məqsədilə pul fondlarının səfərbər edilməsi, eləcə də bu istiqamətdə görüləcək tədbirlərin təşkili və son nəticədə alınmış borc vəsaitlərinin qaytarılmasından ibarət tədbirlər kompleksidir. Dövlət borclarının idarə edilməsi bilavasitə dövlət hakimiyyəti orqanları və idarələrinə məxsusdur.

Hər bir fəaliyyət müəyyən məqsədlərə xidmət etdiyi kimi dövlət borclarının idarə edilməsinin də özünəməxsus məqsədləri vardır. Bu məqsəd dövlət

borclarının idarə edilməsini zəruri edir. Dövlət borcunun idarə edilməsinin məqsədi onun mahiyyətindən irəli gəlir. Belə ki, sözü gedən fəaliyyətdə əsas məqsəd, dövlətin müəyyən müddət ərzində qarşılaşdığı pul vəsaitləri qıtlığını səmərəli şəkildə aradan qaldırmaqdır.

Dövlət borcunun idarə edilməsi bir qrup tədbirlər məcmusundan ibarətdir. Bu tədbirlər dövlət borcu münasibətlərinin mərhələləri ilə bağlıdır.

Beləliklə, dövlət borcunun idarə edilməsi meydana çıxan sərbəst vəsait qıtlığının aradan qaldırılması üçün maliyyə mənbəyinin tapılmasından başlanır. Burada ən vacib məsələ ehtiyac duyulan vəsaitin həcmini tapmaq və onu təmin edəcək ən ucuz maliyyə mənbəyini müəyyən etməkdir. Çünki, artıq bu mərhələdə müəyyən edilmiş borc verən subyekt, yəni kreditor borc münasibətlərinin gələcək inkişafında əhəmiyyətli rol oynayır.

Dövlət borcunun idarə edilməsi prosesindəki sondakı vəzifə cəlb edilmiş vəsaitlərin səmərəli qaydada istifadəsini təmin etməkdir.

Dövlət borcunun idarə edilməsi prosesinin sonuncu mərhələsini borc vəsaitlərinin qaytarılması təşkil edir. Bu, sözü gedən prosesin ən əsas vəzifəsi kimi çıxış edir. Borc vəsaitlərinin ödənilməsi (qaytarılması) mərhələsinin nəticəsi ümumilikdə borc münasibətinin nəticəsi deməkdir. Borc vəsaitinin qaytarılması kredit münasibətlərinin əsas şərtlərindən biri olmaqla yanaşı iqtisadi baxımdan böyük səmərə daşıyır. Bunları aşağıdakı kimi sıralaya bilərik:

Birincisi, borc alan, yəni dövlət müvəqqəti qaydada cəlb etdiyi borcu əvvəlki sahibinə – kreditora qaytarmaqla başqa bir kredit münasibətində obyekt rolunu oynaya bilən maliyyə mənbəyini təmin etmiş olur. Bu yerdə dövlət qiymətli kağızları üzrə yaranan kredit münasibətlərini misal göstərmək olar. Belə ki, dövlət vaxtı çatmış ödənişləri bu maliyyə alətlərinin investorlarına təqdim etməklə onları növbəti borc alətlərini almağa stimullaşdırır.

İkincisi, dövlət borc ödənişləri üzrə öhdəliklərini yerinə yetirməklə özünün kredit reytinqini qaldırmış olur ki, bu da müasir kredit bazarında çox vacib şərt sayılır və s.

Dövlət borclarının idarə edilməsində bu mərhələ vəsaitlərin hərəkət istiqamətini dəyişir. Dövlət borclarının ödənişinin idarə edilməsi bilavasitə digər mərhələlərin nəticəsi ilə sıx əlaqədardır. Buna misal olaraq vəsaitlərin istifadəsi mərhələsini göstərə bilərik. Belə ki, borcların səmərəli şəkildə istifadə olunması onların vaxtlı-vaxtında və tam həcmdə ödənilməsinə şərait yaradır.

Ümumiyyətlə, dövlət borclarının səmərəli şəkildə idarə edilməsi dedikdə öhdəliklərin vaxtlı-vaxtında və tam həcmdə idarə olunması başa düşülür.

**Dövlət borcunun idarə edilməsi mərhələləri.**




### 3. Dövlət borclarının idarə edilməsinin əsas prinsipləri

Dövlət borcu münasibətləri maliyyə sisteminin tərkib hissəsi olmaqla onun digər həlqələri üçün köməkçi xarakter daşıyır. Belə ki, dövlətin borc siyasəti iqtisadi siyasətin digər formaları, o cümlədən investisiya siyasəti, büdcə siyasəti və s. ilə sıx bağlıdır. Ona görə də dövlətin borc siyasətinin tərkib hissəsi olan borcların idarə edilməsi mövcud prinsiplərə tabe olmalıdır.

Bu prisniplər aşağıdakı xüsusiyyətlərdən irəli gəlir:

1. Milli iqtisadi xüsusiyyətlər. Ümumilikdə dövlət borclarının səmərəliyi milli iqtisadiyyata xidmət etdiyi üçün onun idarə edilməsində milli iqtisadiyyatın xüsusiyyətlərindən irəli gələn prinsiplər vacib rol oynayır. Fikrimizi aşağıdakı misal əsasında izah edək: Fərz edək ki, hər hansı bir dövlətdə milli iqtisadiyyatın əsasını neft sənayesi təşkil edir. Məlumdur ki, bu zaman həmin dövlətdə iqtisadiyyatın prioritet sahələri əsasən neft sənayesi ilə bağlı olacaqdır. Digər tərəfdən bilirik ki, prioritet sahələrin kreditləşdirilməsində dövlət borcları mühüm yer tutur. Buradan aydın olur ki, qeyd olunan ölkədə dövlət borclarının böyük bir hissəsi məhz, neft sənayesi ilə bağlı olacaqdır. Göstərdiyimiz misal dövlət borclarının idarə edilməsində milli iqtisadiyyat amilini ifadə edir. Deməli, dövlət borclarının idarə edilməsi zamanı milli iqtisadi prinsiplər mütləq gözlənilməlidir.

Digər prinsiplər dövlət borcu münasibətlərinin əsasını təşkil edən kredit münasibətləri ilə bağlıdır. Yəni, burada bir iqtisadi kateqoriya kimi kredit münasibətlərinin prinsipləri xüsusi yer tutur. Dövlət borcunun idarə edilməsi mərhələlərinə nəzər saldıqda aydın görünür ki, bu fazalar uyğun olaraq kredit münasibətlərinin hərəkəti fazaları ilə üst-üstə düşür. Eyni zamanda, bu hərəkət

fazaları həm kreditin, həm də dövlət borcunun idarə edilməsinin prinsipləri kimi çıxış edir.

Başqa qrup prinsiplər ölkədə maliyyə bazarlarının inkişafı ilə bağlıdır. Yəni, bütün hallarda dövlət borclarının idarə edilməsi maliyyə bazarlarının, o cümlədən dövlət qiymətli kağızlar bazarının inkişafına xidmət etməlidir. Bu qrupda yer alan prinsiplər dövlətin kredit reytinqinin qorunmasına və yüksəlməsinə kömək edir.

Müasir dünya dövlətlərinin həyata keçirdiyi bütün iqtisadi siyasətlər fonunda dövlət borcunun idarə edilməsi də demokratik prinsiplərə arxalanmalıdır. Əks halda bu siyasət heç cür ictimai maraqlara xidmət edə bilməz.

Ümumiyyətlə, dövlət borcunun idarə edilməsi prinsipləri onun səmərəliyi baxımından böyük əhəmiyyətə malikdir. Bütün prinsiplərə əməl olunması son nəticədə borc öhdəliklərinin vaxtlı-vaxtında və tam həcmdə icra olunmasına əsaslı şərait yaradır.

Dövlət borcunun idarəedilməsinin vacib prinsiplərindən biri məcburilik prinsipidir. Cəlb edilmiş borc öhdəliklərinin mövcud şərtlərə uyğun şəkildə icra edilməsinin məcburiliyi bu prinsipin mahiyyətini təşkil edir. Qeyd olunan prinsipi mahiyyəti öz əsasını borc münasibətlərinin əsas şərti olan qaytarmaqlıq xüsusiyyətindən götürür. Belə ki, hər bir borclu qurum kimi dövlət də, daşıdığı öhdəliyin icrası üçün borcludur.

Məlum olduğu kimi, dövlət borcu maliyyə sisteminin, xüsusilə də dövlət maliyyəsinin ayrılmaz hissəsidir. Bu fikir bir daha sübut edir ki, ümumilikdə dövlət maliyyəsinin mövcudluğu baxımından dövlət borcu münasibətləri mühüm əhəmiyyət daşıyır. Buradan aydın olur ki, dövlət borcunun idarə edilməsi təkcə öhdəlik baxımından deyil, eyni zamanda dövlət maliyyəsinin optimal fəaliyyətinə görə məcburi xarakter daşıyır.

Dövlət borcunun idarə edilməsinin məcburilik prinsipi digər tərəfdən bu münasibətlərin subyektlərinin maraqları ilə bağlıdır. Burada söhbət kreditor, yaxud investorlardan gedir. Belə ki, sözügedən münasibətlərdə borc verən subyektlərin demək olar ki, yeganə marağı mənfəət əldə etməkdir. Məlumdur ki, yerləşdirilən kreditin mənfəətliliyi təkcə faizlərin alınması deyil, həm də öhdəliklərin borclu tərəfindən vaxtlı-vaxtında icra edilməsindən asılıdır. Beləliklə, dövlət kreditorlar və investorlar qarşısında daşıdığı öhdəlikləri tam şəkildə və müəyyən edilmiş müddət ərzində yerinə yetirmədikdə həmin borc verən subyektlərlə qurula biləcək sonrakı münasibətlərini sual altına almış olur. Bu, dövlət borcunun idarə edilməsini məcburi edən ən vacib cəhətlərdən biridir. Dövlət borcu münasibətlərində investor kimi çıxış edən ən böyük subyektlərdən biri əhalidir. Eyni zamanda, dövlət borcunun idarə edilməsi metodlarının müxtəlifliyi və genişliyi, məhz, dövlət qiymətli kağızları ilə bağlıdır. Əgər dövlət ölkə daxili subyektlər, o cümlədən əhali arasında yerləşdirdiyi borc alətləri üzrə öhdəlikləri lazımi qaydada icra etmirsə, yaxud onlardan imtina edirsə, bu hal yalnız iqtisadi münasibətlər müstəvisi ilə məhdudlaşmır. Belə ki, bu zaman maraqlı bir ziddiyyət meydana çıxır. Bir tərəfdən sözügedən subyektlərin

hüquqlarının təminatçısı olan dövlət, digər tərəfdən onlara olan borclarından imtina etməklə, yaxud qismən yayınmaqla onların hüquqlarını pozmuş olur. Buradan aydın olur ki, dövlət borcunun idarə edilməsinin məcburiliyi iqtisadi münasibətlər kimi ictimai-siyasi, eləcə də hüquqi münasibətlər baxımından zəruri sayılır.

Borc öhdəliklərinin icra edilməsi məcburi olduğu halda, bir sıra vəziyyətlərdə həmin öhdəliklərin şərtlərinin dəyişdirilməsi, yəni idarəetmə metodlarından istifadə edilməsi zərurətə çevrilir.

Müxtəlif səbəblər üzündən meydana gələn bu zərurət dövlətlə borc verən subyektlər arasında yaranmış münasibətləri müəyyən qədər dəyişmiş olur. Məsələn, iqtisadiyyatın tənəzzül dövrlərində dövlət borc öhdəliklərini vaxtlı-vaxtında və tam həcmdə icra etmək imkanına malik olmadığı üçün, ya borc müddətini uzadır, ya faizləri aşağı salır, yaxud da digər çoxcəhətli metodlar vasitəsilə öhdəliklərini yüngülləşdirməyə çalışır. Borc münasibətlərinin bu istiqamətdə şəkil alması məcburilik prinsipini deformasiyaya uğratsa da aradan qaldıra bilmir. Yəni, bütün hallarda dövlət borcunun idarə edilməsi məcburi xarakter daşıyır.

Dövlət borcunun idarə edilməsinin prinsipləri arasında vahidlik prinsipi əhəmiyyətinə görə digərlərindən seçilir. Vahidlik prinsipinin mahiyyəti ondan ibarətdir ki, dövlət borclarının idarə edilməsi prosesində bütün növ öhdəliklər vahid qaydada hesaba alınmalı və onların icrası bir tam olaraq həyata keçirilməlidir.

Bundan öndəki mövzularda geniş şəkildə qeyd olundu ki, dövlət borcu münasibətlərinin sərhədi mütləq olaraq müəyyən edilməmişdir. Yəni, müxtəlif dövlətlərdə fərqli səbəblər üzündən meydana gələn öhdəliklər dövlət borcuna daxil edilir və onların icrası həyata keçirilir. Bu səbəbdən irəli gələrək, hər bir ölkədə dövlət borclarının tərkibi müxtəlif cəhətli öhdəliklərin məcmusundan ibarətdir. Digər tərəfdən məlumdur ki, ümumilikdə dövlət borclarının idarə edilməsi ayrı-ayrılıqda hər bir öhdəliyin icrası proseslərinin birləşməsidir. Lakin, ayrı-ayrılıqda borc öhdəliklərinin icrası dövlətin makro səviyyədə borc siyasətinin tərkib hissəsinə çevrilmişdir. Yəni, hər hansı borc öhdəliyinin tam şəkildə icra edilməsi, başqa bir öhdəliyin isə ümumiyyətlə idarə olunmaması ümumilikdə dövlət borclarının idarə edilməsi baxımından məqsədəuyğun sayıla bilməz. Çünki, dövlətin borc öhdəlikləri tam şəkildə qəbul olunmalı, onların icra olunması da vahid mərkəz tərəfindən həyata keçirilməlidir. Bu cəhət dövlət borclarının idarə edilməsində vahidlik prinsipinin əsasını təşkil edir.

Bu prinsipin böyük üstünlükləri vardır. Bunları aşağıdakı kimi sıralamaq olar:

Birincisi, bu prinsip makro səviyyədə dövlət borcu siyasətinin təşkili və ona yönəlik zəruri islahatların həyata keçirilməsi baxımından çox vacibdir. Eyni zamanda daxili və xarici dövlət borcu siyasətinin tam olaraq dəyərləndirilməsi və qarşılıqlı əlaqəsi qeyd olunan prinsipin vacib xüsusiyyətlərindən sayılır.

İkincisi, vahidlik prinsipi müəyyən qisim dövlət borclarının yenidən borc vəsaitləri ilə ödənişinin təşkilinə şərait yaradır.

Üçüncüsü, bu prinsip digər borc öhdəliklərinin, o cümlədən, qeyri borc münasibətlərindən yaranan dövlət borclarının məqsədsiz borclar kimi qeydə alınmasına və idarə olunmasına imkan verir. Bu cəhət dövlətin digər subyektlər, eləcə də xarici dövlətlər qarşısında ağır borc öhdəliklərinin icrası baxımından daha məqsədəuyğun hesab olunur və s.

Dövlət borcunun vahidlik prinsipi əsasında idarə edilməsi ümumilikdə vaxtı çatmış dövlət borclarının tam həcmdə qaytarılması üçün vacib rol oynayır. Fikrimizi aşağıdakı misal əsasında izah edək: Fərz edək ki, hər hansı birbaşa xarici kreditin ödənişinin müəyyən hissəsi dövlət büdcəsi hesabına nəzərdə tutulmuşdur. Lakin, ödəniş müddəti çatdıqda dövlət büdcəsinin mövcud vəziyyəti buna imkan vermir. Bu zaman digər maliyyə mənbələrinin köməyindən istifadə edilməsi, eləcə də bu məqsədlə dövlət qiymətli kağızların yerləşdirilməsi sözü gedən borcun icrasını təmin edəcəkdir. Buradan aydın olur ki, bir borc münasibətinin digər borc münasibəti ilə qarşılıqlı əlaqəsi, ümumilikdə dövlətin borc öhdəliklərinin icrası baxımından böyük üstünlükləri vardır. Beləliklə, vahidlik prinsipi dövlət borclarının idarə edilməsində mühüm rola malikdir.

Dövlət borcunun idarə edilməsində risklərin aşağı salınması prinsipi dövlətin istər daxili, istərsə də xarici borc bazarlarındakı reytinqinə xidmət edir. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, borc vəsaitlərinin cəlb edilməsi və qaytarılması prosesi zamanı beynəlxalq kredit bazarı, eləcə də dövlət qiymətli kağızlar bazarında dövlətə olan inamın səviyyəsi daim qorunmalıdır.

Qeyd olunan prinsip müasir dövrdə olduqca aktual səciyyə daşıyır. Çünki, hazırki şəraitdə heç bir ölkəni beynəlxalq kredit bazarından təcrid olunmuş halda təsəvvür etmək mümkün deyildir. İstənilən ölkənin bu bazardan faydalanmağı isə məhz, kredit reytinqi adlandırdığımız amildən asılıdır. Beləliklə, kredit reytinqinin yüksəlməsinə xidmət edən risklərin aşağı salınması prinsipi öz aktuallığını gündən-günə artırır.

Bu prinsip daha çox dövlətin daxili borc bazarı üzrə öhdəliklərinə, ən əsası da dövlət qiymətli kağızları üzrə yaranan borclara şamil olunur. Çünki, bu zaman ayrı-ayrılıqda heç bir maliyyə aləti özünün risk səviyyəsinə malik olur. Bu risk səviyyəsi, hər şeydən öncə, dövlət qiymətli kağızlarının real dəyəri ilə bağlıdır. Yəni, borc alətinin real dəyəri yüksəldikcə onun risk səviyyəsi aşağı düşmüş olur. Digər tərəfdən də məlumdur ki, dövlət qiymətli kağızlarının real dəyərini formalaşdıran əsas amillər inflyasiya və vergi dərəcələrinin səviyyəsidir. Beləliklə aydın olur ki, dövlət, qeyd olunan amillərin təsirini azaltmaqla dövlət qiymətli kağızlar bazarında riskin səviyyəsini aşağı salmalı və bununla da dövlət borcu siyasətini daha mütərrəqi qaydada həyata keçirməlidir.

Dövlət qiymətli kağızları üzrə riskin səviyyəsi təkcə onun real dəyərindən deyil, eyni zamanda ona olan inamın ölçüsündən asılıdır. Borc alətinə olan inam, həmin borc aləti üzrə, borc alan subyektin daşıdığı öhdəliklərinin icrasına olan inam deməkdir. Yəni, investor dövlətin öz daşıdığı öhdəliklərini tam icra etməsinə

inanmalıdır. Əks halda o, özünün pul münasibətlərini bu maliyyə alətlərinə yönəltməyəcəkdir. Dövlət tərəfindən borc öhdəliklərinin icrası onların idarə edilməsindən asılıdır. Əgər dövlət arzuolunmaz idarəetmə metodlarına üstünlük verərsə bu, son nəticədə investorların "itməsinə" səbəb olacaqdır. Bu baxımdan, dövlət borclarının idarə edilməsində risklərin aşağı salınması prinsipi böyük əhəmiyyətə malikdir.

Dövlət borclanmasına gətirib çıxaran amillər dövrü xarakter daşıdığına görə borc vəsaitlərinə yaranan ehtiyacın səviyyəsi daim dəyişkəndir. Bu fikri daha çox dalğalı dövlət borclarına aid etmək olar. Ehtiyacın səviyyəsinə uyğun olaraq da borc vəsaitlərindən istifadənin həcmi daim dəyişilir. Bu zaman borc alan subyekt kimi dövlətin qarşısında duran vəzifələrdən biri qeyd olunan səviyyələr arasında uyğunluğu təmin etməkdir. Belə ki, ehtiyac duyulan həcmdən az, yaxud, artıq səviyyədə borclanmaq səmərəli sayıla bilməz.

Dövlət borcunun idarə edilməsində optimallıq prinsipinin mahiyyəti borc alətlərinin tədavülü və ödənilməsi arasındakı optimallığı qoruyub saxlamaqdır. Yuxarıda qeyd etdiyimiz kimi, bu prinsip daha çox dövlət qiymətli kağızları üzrə borcların idarə edilməsinə aiddir. Buna misal olaraq, dövlət büdcəsinin gəlir və xərc tarazlığının təmin edilməsi məqsədilə yerləşdirilmiş maliyyə alətlərini göstərmək olar. Bu dövlət borcları dövrü olaraq bütün maliyyə ili ərzində mövcud olduğundan onların idarə edilməsi daha mürəkkəb xarakter daşıyır. Çünki, müəyyən dövr ərzində bu istiqamət üzrə borc vəsaitlərinə olan ehtiyacın həcmi gah artır, gah da azalır. Bu baxımdan qeyd olunan dövlət borclarının idarə edilməsi zamanı cəlb olunacaq vəsaitlərin optimal həcminin tapılması həmin vəsaitlərin səmərəli şəkildə istifadə olunmasına imkan verir.

Dövlət borcunun idarə edilməsində optimallıq prinsipi başqa bir cəhətdən də mühüm əhəmiyyət kəsb edir. Belə ki, yaranmış vəsait qıtlığının aradan qaldırılması üçün hansı borc mənbələrindən istifadənin daha səmərəli olacağı öncədən müəyyənləşdirilməlidir. Məsələn, uzunmüddətli, investisiya xarakterli dövlət borclarının dövlət qiymətli kağızları vasitəsilə cəlb edilməsi, yaxud dövrü olaraq dəyişkən xarakterə malik büdcə ehtiyaclarının (borc ehtiyaclarının) birbaşa xarici kreditlər vasitəsilə ödənilməsi heç də məqsədəuyğun hesab edilə bilməz. Buna görə də yaranmış borc ehtiyacının xarakterindən asılı olaraq maliyyə mənbəyinin tapılması və istifadə olunması dövlət borcunun idarə edilməsi işinin tərkib hissəsi olmaqla böyük əhəmiyyət kəsb edir ki, bu da onun optimallıq prinsipinə uyğun olaraq həyata keçirilir.

Optimallıq prinsipi dövlət borclarının idarə edilməsinin üçüncü mərhələsi, yəni, vəsaitlərin səmərəli şəkildə istifadə olunması işinə xidmət edir. Qeyd etmək lazımdır ki, dövlət borclarının optimal idarə edilməsi həm də ölkənin maliyyə durumu, ümumi iqtisadi şərait, daxili borc bazarının inkişaf səviyyəsi və s. kimi makro amillərdən asılıdır.

Dövlət borclarının idarə edilməsi prosesində vaciblik doğuran prinsiplərdən biri şəffaflıqdır. Şəffaflıq prinsipinin mahiyyəti ölkənin ümumi iqtisadi durumu, borcların idarə edilməsi səviyyəsi, eləcə də onun kredit reytinqini

göstərmək üçün beynəlxalq agentliklərin iştirakını təmin etməkdən ibarətdir. Eyni zamanda bura ölkənin daxili borc bazarında kredit reytinqinin şəffaflığı da daxildir. Ümumiyyətlə, bu prinsip dövlət borclarının idarə edilməsi prosesinin həm ölkədaxili, həm də beynəlxalq müstəvidə şəffaflığını ifadə edir.

Ölkənin beynəlxalq səviyyədə kredit reytinqi ilk öncə, onun iqtisadi durumu, ictimai-siyasi vəziyyəti və potensialından asılıdır. Bundan sonra isə cəlb edilmiş kreditlərin istifadə olunması və qaytarılması prosesinin səviyyəsi əsas götürülür. Məhz, ikinci göstəricinin beynəlxalq reytinq agentlikləri tərəfindən dəyərləndirilməsi dövlət borclarının idarə edilməsi prosesində şəffaflıq prinsipini zəruri edir.

Ölkənin beynəlxalq müstəvidə yüksək kredit reytinqinə malik olması müasir şəraitdə çox vacib şərtdir. Ucuz və güzəştli kreditlərin ölkə iqtisadiyyatına cəlb edilməsi iqtisadi inkişafa böyük müsbət təsirlər göstərəcəkdir.

Dövlətin daxili borc bazarındakı reytinqi də əsaslı göstəricilərdən biri kimi çıxış edir. Belə ki, maliyyə bazarının tərkib hissəsi olan dövlət qiymətli kağızlar bazarının inkişafı birbaşa bu amildən asılıdır.

Dövlətin qiymətli kağızlar bazarında reytinqini müəyyənləşdirən şəffaflıq prinsipi həm də sözügedən prosesin demokratikliyini ifadə edir. Yəni, dövlət borclarının şəffaf qaydada idarə edilməsi borc vəsaitlərinin düzgün və səmərəli şəkildə istifadə olunmasına şərait yaradır.

Digər tərəfdən, bu prinsip dövlət maliyyəsinin tərkib hissəsi olan dövlət borclarının idarə edilməsində korrupsiya hallarının qarşısını almağa xidmət edir.

Qeyd olunan prinsipin böyük üstünlükləri vardır ki, bu da hər şeydən öncə borc siyasəti və həmin siyasətin strategiyası ilə bağlıdır. Əvvəllərdə qeyd etdiyimiz kimi, dövlət qiymətli kağızlar bazarının inkişafı ilk növbədə bu maliyyə alətlərinə olan inamın səviyyəsindən asılıdır. Bu inamın ifadəsi də məhz, investorun bu haqda malik olduğu informasiyadır. Yəni, investor ağır sosial-iqtisadi şəraitdə bu maliyyə alətlərinə yüksək tələb göstərməyəcəkdir. Bu baxımdan, borc vəsaitlərindən istifadənin şəffaf qaydada həyata keçirilməsi investorları informasiyalaşdıraraq daha maraqlı edir.

Bir çox maliyyə böhranları nəticəsində dövlət, daşıdığı borc öhdəliklərini yüngülləşdirmək məqsədilə maliyyə alətlərinin şərtlərini dəyişmək məcburiyyətində olur. Bu zaman ya borc öhdəliklərinin müddəti uzadılır, yaxud da onların faizləri aşağı salınır. Belə olan halda, təbii olaraq bu dəyişiklik investorun maraqlarına toxunmuş olur. Əgər investor qeyd olunan dəyişikliyin obyektiv səbəblərindən xəbərdar deyilsə, bu zaman onun həmin dövlət qiymətli kağızlarına inamı kəskin şəkildə aşağı düşmüş olur. Bu da son nəticədə həmin maliyyə alətlərinin risk səviyyəsini yüksəldir. Lakin, investor yaranmış maliyyə gərginliklərindən xəbərdar olduqda, yəni idarəetmə prosesi şəffaf getdikdə, bu qiymətli kağızlara olan tələb və onun reytinqi heç də aşağı enmir.

Ümumiyyətlə, borc – qaytarılmaq şərti ilə edilən ödənişdir. Borc münasibətlərini digərlərindən fərqləndirən yeganə spesifik cəhət də bu

xüsusiyyətdən irəli gəlir. Dövlət borcu da digər borc münasibətləri kimi sözügedən prinsipə tabedir.

**Seminar sualları:**

1. *Dövlət borclarının mahiyyəti*
2. *Dövlət borclarının zəruriliyi*
3. *Dövlət borclarının təsnifləşdirilməsi*
4. *Dövlət borclarının planlaşdırılması*
5. *Dövlət borcunun məcburi ödəniş forması*
6. *Dövlət borclarının idarəedilməsinin mahiyyəti*
7. *Dövlət borclarının prinsipləri*
8. *Dövlət borclarının idarəedilməsinin metodları*